# Azərbaycan Respublikasının «Şöhrət» ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikasının «Şöhrət» ordeninin statutu və təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV***

***Bakı şəhəri, 6 dekabr 1993-cü il***

***№ 757***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (18 dekabr 1993-cü il, № 245).***

***«Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı»nda dərc edilmişdir (1993-cü il, № 23-24, maddə 680.***

***6 fevral 1998-ci il tarixli, 429-IQD nömrəli; 19 oktyabr 2007-ci il tarixli, 460-IIIQD nömrəli; 30 sentyabr 2013-cü il tarixli, 724-IVQD nömrəli Qanunlara əsasən dəyişikliklərlə.***

*Azərbaycan Respublikasının*
*1993-cü il 6 dekabr tarixli*
*757 saylı Qanunu ilə*
*təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının «Şöhrət» ordeninin Statutu

1. Azərbaycan Respublikasının «Şöhrət» ordeni Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbi vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə aşağıdakılara görə verilir:

- iqtisadi, elmi-texniki, sosial-mədəni inkişafda xüsusi xidmətlərinə görə;
- sülhün və xalqlar arasında dostluğun möhkəmləndirilməsində və əməkdaşlığın inkişafında xüsusi xidmətlərinə görə;
- sənaye, nəqliyyat, rabitə, tikinti sahələrində və xalq təsərrüfatının digər sahələrində görkəmli əmək nəticələrinə görə;
- elm, təhsil və səhiyyə sahəsində xüsusi xidmətlərinə görə.

2. «Şöhrət» ordeni döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda *«Şərəf»* ordenindən sonra taxılır.

Azərbaycan Respublikasının<br>1998-ci il 6 fevral tarixli,<br>429-IQD nömrəli Qanunu ilə<br>təsdiq edilmişdir.

# *«Şöhrət» ordeninin təsviri*

*«Şöhrət» ordeni aypara şəklində, milli ornamentlərlə haşiyələnmiş dəfnə çələngləri içərisində təsvir olunmuş, şüaları yuxarıya səpələnən günəş kompozisiyasından ibarətdir. Kompozisiya qızıl suyuna çəkilmiş gümüşdəndir, üzəri mavi mina ilə örtülmüşdür, qabarit ölçüləri 32 mm x 38 mm-dir.*

*Şüaları qövs şəklində kəsən və dəfnə budaqlarının yuxarı uclarını birləşdirən qızılı rəngli lentin üzərində «Şöhrət» sözü yazılmışdır. Qızılı rəngli lentin yuxarısında 9 mm diametrdə olan səkkizguşəli qızılı rəngli ulduz yerləşir.*

*Arxa tərəfi hamar səthlidir, ortasında ordenin seriyası və nömrəsi həkk olunmuşdur.*

*Orden paltara bərkidilmək üçün elementi olan, 37 mm x 50 mm ölçüdə göy-ağ çalarlı beşguşəli xara lentə halqa və ilgək vasitəsilə birləşdirilir. Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı təbəqə bərkidilir.*

*Ordenə paltara bərkidilmək üçün elementi olan, eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm ölçülü qəlib əlavə olunur.*



**“Azərbaycan Respublikasının “Şöhrət” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 757 nömrəli Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq qərara alır:

“Azərbaycan Respublikasının “Şöhrət” ordeninin statutunun və təsvirinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 1993-cü il 6 dekabr tarixli 757 nömrəli Qanunu (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1993, № 23-24, maddə 679; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 3, maddə 141; 2007, № 11, maddə 1076) ilə təsdiq edilmiş “Şöhrət” ordeninin təsviri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. İkinci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Qızılı rəngli lentin yuxarısında 9 mm diametrdə olan səkkizguşəli qızılı rəngli ulduz yerləşir.”.

2. Üçüncü hissədə “nömrəsi” sözündən əvvəl “seriyası və” sözləri əlavə edilsin.

3. Dördüncü hissədə “27 mm x 47,5 mm” sözləri “37 mm x 50 mm” sözləri ilə əvəz edilsin və hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Xara lentin yuxarı hissəsinə 40 mm x 5 mm ölçülü qızılı təbəqə bərkidilir.”.

4. Beşinci hissədə “üzərində alov simvolu təsvir edilən eyni xara lentdən hazırlanmış 27 mm x 9 mm” sözləri “eyni xara lentdən hazırlanmış 37 mm x 10 mm” sözləri ilə əvəz edilsin.

"ŞÖHRƏT" ordeni




**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 30 sentyabr 2013-cü il.**